

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN AZƏRBAYCANDA FƏALİYYƏTİ

130

Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvar ayının 31-də Bakının Novxanı kəndində ruhani ailəsində doğulub. Atası axund Hacı Ələkbər dindar olmasına baxmayaraq, müasir fikirlərə sahib insan idi və oğlunun yüksək təhsil almasında maraqlı idi. M.Ə.Rəsulzadə ilk təhsilini Sultan Məcid Qənizadənin müdirlik etdiyi "İkinci Rus-Tatar məktəbi"ndə aldıqdan sonra "Bakı-Texniki məktəb"ə daxil olmuşdur. Burada bir qədər oxuduqdan sonra təhsilini yarımçıq qoyub, bütün fəaliyyətini siyasətə yönəltmişdir. Hətta, ona bu siyasi işlərdən uzaqlaşmağı təlqin edənlərə sonradan belə məzmunda bir şeir də yazmışdı:

*Çəkilməm ey hərifan mən,*
*Bu meydani-siyasətdən.*
*Bütün dünya mənə derkən*
*Çəkil bir yanə, sakitləş!*

1902-1903-cü illərdə M.Ə.Rəsulzadə üzvləri müxtəlif rus liseylərində və digər orta məktəblərdə oxuyan azərbaycanlı türk tələbələrindən ibarət gizli bir dərnək yaratmışdı. Dərnəyin fəaliyyəti haqqında M.Ə.Rəsulzadə yazırdı: "Bu dərnək mənsublarının milli hisslərini təhrik etmək, rus məktəblərində oxudulmayan türkləri öz-özünə irəlilətmək, yerli ədiblərin əsərlərini oxumaq, çarlıq əleyhinə yazılmış ixtilal şeirlərini əzbərləmək və arada-sırada mətbəə üsulu ilə basılmış bəyannamələr dağıtmaq, işçilər arasına gedərək hürriyyət və inqilab fikirlərini bunların arasında sistemli surətdə yaymaq kimi fəaliyyətlər də olurdu" (1, s. 13-14).

M.Ə.Rəsulzadənin yaratdığı həmin dərnək "Müsəlman Gənclik Təşkilatı" adı altında müəyyən fəaliyyət göstərdikdən sonra Rusiya hökumətindən milli mədəni hüquqlar almaq ümidində idi. Onlar "çarizmə qarşı mübarizədə inqilabçı sosializmi ən sadiq olmasa da, ən münasib bir müttəfiq olaraq gördüyündən" (2, s. 30) sosial-demokratlarla yaxın işbirliyinə keçmişdilər.

M.Ə.Rəsulzadənin o zaman yaratdığı "Müsəlman Gənclik Təşkilatı"nın təşviqat-təbliğat işində "Hümmət" qəzeti mühüm rol oynamışdı. 1904-cü ilin axırlarından 1905-ci ilin fevralınadək bir neçə yüz nüsxə tirajla nəşr edilən qəzetin 5-6 sayı çıxmış, 1917-ci il iyulun 3-dən isə N.Nərimanovun redaktorluğu ilə bu mətbu orqan yenidən nəşrə başlamışdı.

M.Ə.Rəsulzadə "Hümmət"in Qafqazda türk (Azərbaycan) mətbuatı arasında ilk partiya orqanı olduğunu göstərmişdir. "Hümmət"in həmin illərdə nəşr olunmuş nüsxələrindən yalnız birində - 3-cü sayında (1905-ci il) M.Ə.Rəsulzadənin bir məqaləsi hələlik tapılmışdır. Həmin məqalə 1917-ci ildə "Açıq söz" qəzetinin 5 iyul tarixli sayında (№513) çap edilmişdir (3, №513, 1917).

Qeyd edək ki, azərbaycanlı fəhlələri geniş dairədə inqilabi mübarizəyə cəlb etmək məqsədilə 1904-cü ilin axırlarında RSDFP-nin Bakı Komitəsi nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" qrupu yaradıldı (4, s.63). "Hümmət"in baniləri arasında M.Ə.Rəsulzadə, N.Nərimanov, M.Əzizbəyov, M.H.Mövsümov, M.H.Hacınski və başqaları vardı. Müsavat Partiyasının yaradıcılarından olan Abbasqulu Kazımzadə, Kərbalayı Mikayılzadə də "Hümmət" təşkilatının keçmiş üzvlərindən idi.

"Hümmət" Bakı partiya təşkilatının ayrılmaz tərkib hissəsi idi və Bakı Bolşevik Komitəsinin azərbaycanlı fəhlələr arasında işləyən şöbəsi hüququ ilə fəaliyyət göstərirdi. S.M.Əfəndiyev yazırdı: "Bizim partiyamız "Hümmət" məsələsində öz əsas prinsipinə, yəni partiyanın və fəhlə hərəkatının vahid və bölünməz olması prinsipinə sadiq qaldı" (5, s.16).

Lakin az keçməmiş 1905-ci ildə Rusiyada başlanan Birinci Rusiya İnqilabından sonra M.Ə.Rəsulzadə və silahdaşları bolşeviklərin məram və məqsədlərindən Azərbaycana heç bir fayda olmayacağını başa düşüb, onlardan uzaqlaşdılar. 1907-ci ildə "Hümmət"in bağlanmasına qərar verildi (6, s. 32).

*(Ardı səh. 26 - da)*

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN AZƏRBAYCANDA FƏALİYYƏTİ

*(Əvvəli səh. 8 - də)*



Bu dövrdə mətbuat geniş vüsət alır, inkişaf edir, ictimai-siyasi fikrin təşəkkülünə təkan verirdi. Mətbuata maraq həm də milli mənliyin dərk edilməsində oynadığı mühüm əhəmiyyəti ilə bağlı idi. Elə həmin illərdə M.Ə.Rəsulzadənin ilk mətbu yazısı 1903-cü ildə Tiflisdə çıxan "Şərqi Rus" qəzetində çap olundu. "Bakıdan məktub" başlığı altında nəşr edilən bu məqalədə M.Ə.Rəsulzadə elmin, təhsilin, məktəbin vacibliyinə toxunurdu (7).

Mövcud mühitə, rus istibdad rejiminə qarşı mübarizəsi baxımından M.Ə.Rəsulzadənin ilkin dövr fəaliyyətini və mətbu yazılarını öyrənmək əhəmiyyətlidir. "Şərqi Rus", "Hümmət", "Dəvət Qoç", "Təkamül", "İrşad" və digər mətbuat orqanlarında M.Ə.Rəsulzadənin mövcud rejim əleyhinə onlarla yazısı çap olunub. 1909-1913-cü illərdə isə M.Ə.Rəsulzadə İranda, Türkiyədə olub, orada geniş fəaliyyət göstərib.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə bağlı verilən əfvi-ümumidən (ümumi bağışlamadan) sonra M.Ə.Rəsulzadə Bakıya qayıtdı.

Qeyd edək ki, bu dövrdə artıq Bakıda "Müsavat" Partiyası qurulmuş və çar hökuməti əleyhinə ciddi mübarizə aparılırdı. M.Ə.Rəsulzadə Bakıya qayıtdıqdan sonra "Partiyanın rəhbərliyinə keçərək, onun proqramını yeni siyasi şəraitə uyğun şəkildə işləyib hazırladı, partiyanı türk-islam sintezini əsas tutan türkçü bir quruluş halına gətirdi" (8, s. 65).

Qeyd edək ki, "Müsavat" Partiyasının əsası 1911-ci ilin oktyabr ayında Məhəmməd Əli Rəsuloğlu, Abbasqulu Kazımzadə və Tağı Nağıoğlu tərəfindən qoyulmuşdu. O zaman Türkiyədə yaşamaq məcburiyyətində olan M.Ə.Rəsulzadə əqidə dostlarına göndərdiyi məktublarda belə bir təşkilatın qurulmasının vacibliyini bildirirdi. 1913-cü ildə Bakıya qayıtdıqdan sonra o, partiyanın fəaliyyətinə yeni istiqamət verdi, təşkilatın əsas ideoloqu oldu.

Bu illərdə M.Ə.Rəsulzadə ciddi siyasi iş aparır, o dövrdə hökumət tərəfindən fəaliyyətinə icazə verilən bəzi xeyriyyə və maarifçilik məqsədi daşıyan cəmiyyətlərə təsirini artırmağa çalışırdı. Belə cəmiyyətlər sırasında "Nicat", Maarif Cəmiyyəti", "Bakı Cəmiyyəti Xeyriyyəsi" və "Nəşri-Maarif Cəmiyyəti" vardı (9, s.13).

Bu dövrdə M.Ə.Rəsulzadənin "Dirilik" jurnalında çap edilmiş məqalələri ictimai əhəmiyyəti baxımından da diqqəti daha çox cəlb edirdi. Məqalələrdə milli dirçəlişin yolları ətraflı şəkildə araşdırılmış, mövcud siyasi quruluşun imkanları çərçivəsində izah edilmişdi. O yazırdı: "Əcələ bir surətdə maddətən tərəqqi edib də mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib, mənəviyyatca müstəqil qalmağı tərcih edərəm, çünki milliyyətində, bəşəriyyətin də faidəsi bundadır" (10, s. 15).

M.Ə.Rəsulzadənin sonrakı ictimai-siyasi, publisist fəaliyyətində "İqbal", "Yeni İqbal" və "Açıq söz" qəzetlərinin böyük əhəmiyyəti olmuşdu.

"Açıq söz" qəzeti 1915-ci il oktyabr ayının 2-də həftənin beşinci günü Bakıda nəşrə başlamışdı. M.Ə.Rəsulzadənin başçılıq etdiyi qəzetin adının altında yazılmışdı: "Siyasi-ictimai və ədəbi Türk qəzetəsi". Çap olunduğu yer: Nikolayevski küçəsi, M.Ələkbərovun mətbəəsi, poçt №357.

Bu qəzet haqqında M.Ə.Rəsulzadə yazırdı: "Açıq söz" ilk dəfə olaraq o vaxta qədər Qafqaziya müsəlmanı və yaxud tatar deyilən xalqın türk olduğunu sərahət və israrla meydana atmış və bu xüsusda hərb senzoru ilə mübarizə etmək zərurətində qalmışdı" (11, s.17).Qəzetin baş məqaləsi "Tutacağımız yol" adlanırdı. Müəllifi M.Ə.Rəsulzadə olan bu yazıda mühüm bir problem açıqlanırdı: "Dəhşətlərinə şahid olduğumuz bu yol bir həqiqəti-əsrimizin milliyyət əsri olduğunu isbat etdi. "Dünyanın xəritəsi hərbdə dəyişəcək" – deyə heyrətlə qarışıq bir cümlə indi bir çox ağızlardan eşidilməkdədir" (12). Qeyd edək ki, "Açıq söz" qəzeti xalqın ehtiyaclarından

yazır, işıqlı fikirlər yayırdı

1917-ci il fevralın 27-də Rusiyada Fevral Burjua inqilabının baş verməsi Azərbaycandakı ictimai-siyasi proseslərə ciddi təsir göstərdi.

Fevral inqilabından sonrakı ilk günlərdə Azərbaycanda fəaliyyət göstərən təşkilatların mərkəzləşməsinə ehtiyac duyulurdu və bu məqsədlə 1917-ci il martın 29-da Bakı Müsəlman ictimai təşkilatlarının Müvəqqəti Komitəsi yaradıldı. Müvəqqəti Komitənin sədri M.H.Hacınski, onun müavini isə M.Ə.Rəsulzadə seçildi.

1917-ci il aprelin 15-dən 20-dək Qafqaz müsəlmanlarının Qurultayı keçirildi. Qurultayda mövcud şərait təhlil olundu.Rusiyadakı müsəlmanların 1917-ci il mayın 1-dən 11-dək Moskvada keçirilən Birinci Ümumrusiya Qurultayı milli mədəni inkişafın formalaşmasında mühüm rol oynadı. Qurultayda M.Ə.Rəsulzadənin "Ərazi Muxtariyyəti" ideyası ilə çıxışı böyük maraqla qarşılandı. M.Ə.Rəsulzadə çıxışında dedi: "Rusiyanın idarə forması demokratik respublika olmalıdır. Yer kürəsinin altıda birini tutan, Kamçatkadan Qara dənizə qədər və Arxangelskdən İranla sərhədə qədər uzanan, 170 milyon əhalisi olan çoxmillətli bir dövlət bir mərkəzdən idarə oluna bilməz. Ona görə də, Rusiya dövlətinin idarə forması federasiya olmalıdır". Onun irəli sürdüyü məhəlli muxtariyyət ideyası qurultayda 271 səsə qarşı 446 səslə qəbul edildi.

Qeyd edək ki, 1917-ci ilin aprelində Qafqaz Müsəlmanlarının Qurultayında M.Ə.Rəsulzadə ilə N.Yusifbəyli hər iki təşkilatın ("Müsavat"la "Türk Ədəmi Mərkəziyyət"in) birləşdirilməsi qərarına gəlmişdilər.

1917-ci il iyun ayının 17-də M.Ə.Rəsulzadənin lideri olduğu "Müsavat"la N.Yusifbəylinin başçılıq etdiyi "Türk Ədəmi – Mərkəziyyət Partiyası"nın Birləşmə qurultayı keçirildi.

Azərbaycan istiqlalının 1918-ci ildə qazanılması baxımından bu çox mühüm hadisə idi. Bu onunla bağlı idi ki, "Müsavat"ın Bakı və Bakı ətrafında, "Türk Ədəmi - Mərkəziyyət"in isə Gəncə və Gəncə ətrafında təsiri güclü idi. Beləliklə, hər iki təşkilatın birləşməsi nəticəsində istiqlal uğrunda çətin bir mübarizə aparan Ümumazərbaycan partiyası yarandı. M.Ə.Rəsulzadə isə partiyanın sədri seçildi.

İki partiyanın birləşməsindən sonra Azərbaycanda güclü siyasi bir təşkilatın mücadilə dövrü başladı. "Müsavat"ın isə böyük nüfuza malik olduğunu 1917-ci ilin oktyabrında Bakı Sovetinə keçirilən yeni seçkilər də bir daha təsdiqlədi.

Belə gərgin şəraitdə 1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda "Müsavat" Partiyasının ilk qurultayı keçirildi. Bu qurultayda "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat" öz proqramını elan etməli idi. "Müsavat" Partiyasının ilk bitkin sənədi məhz həmin proqram olmalı idi (16, F. 276, s.7, iş 168, v.1).

Qurultay 76 maddədən ibarət partiyanın proqramını qəbul etdi. Partiyanın proqramında aşağıdakı məsələlər nəzərdə tutulurdu: 1. Dövlət və muxtariyyət. 2. Milli məsələlər. 3. Dini məsələlər. 4. Həqqi əhliyyət. 5. İqtisad və maliyyə işləri. 6. Torpaq məsələsi. 7. İşçi məsələsi. 8. Ədliyyə məsələsi. Muxtariyyət tələbi rəsmi şəkildə partiya proqramında öz əksini tapdı.

"Müsavat"ın proqramında dövlət və muxtariyyət təşkilatı məsələsi dəqiq izah edilərək belə qoyulmuşdu: "Rusiya dövlətinin şəkli - idarəsi milli-məhəlli muxtariyyət əsası üzərinə qurulu qoşma xalq cumhuriyyətindən ibarət olmalıdır" (19, F. 894, s.10, iş 39, v.2).

Qeyd olunmalıdır ki, beş yüzə qədər adamın iştirak etdiyi "Müsavat" Partiyasının birinci qurultayında otuz üç yaşlı Məhəmməd Əmin Rəsulzadə Mərkəzi Komitənin sədri seçildi.

O illərdə Zaqafqaziyadakı siyasi təşkilatlar da öz fəaliyyətlərini gücləndirdilər. 1917-ci ilin noyabr ayında Tiflisdə Zaqafqaziyadakı siyasi təşkilatların yığıncağı keçirildi və Zaqafqaziya Komissarlığı yaradılması qərara alındı. Həmin il noyabr ayının 14-də yaradılmış yeni hökumətin tərkibi elan edildi.

1918-ci ilin fevralından, Zaqafqaziya Seyminin ilk iclasından isə Azərbaycan siyasətçilərinin Zaqafqaziya istiqlalı uğrundakı mübarizəsinin yeni mərhələsi başlandı. Həmin il fevralın 23-də Tiflisdə Zaqafqaziyanın qanunverici orqanı – Zaqafqaziya Seyminin açılışı oldu. Seymdəki Azərbaycan fraksiyası 44 millət vəkilindən ibarət olub (18, s. 130), "Müsavat", "İttihad" "Hümmət" və "Müsəlman Sosialist bloku"nu təmsil edirdi. 1918-ci il martın 14-də keçirilən Trapezund Sülh Konfransında da Türkiyə nümayəndələri artıq Zaqafqaziya nümayəndələrindən respublikaların siyasi quruluşları haqqında qətnamə tələb edirdilər.

Bundan əlavə, 1918-ci ilin mart hadisələri də Zaqafqaziya Seymindəki münasibətləri gərginləşdirdi və Azərbaycanın milli müstəqilliyi uğrundakı mübarizədə həlledici mərhələ sayıldı. Qeyd edək ki, on minə yaxın günahsız adamın ölümünə səbəb olmuş 1918-ci ilin mart hadisələri Azərbaycan tarixinin ən faciəli səhifələrindən idi. M.Ə.Rəsulzadə yazırdı: "Bu hadisə ilə bolşeviklər bir çox vilayətlərdə yapdıqları qanlı əməliyyatı Bakıda da tətbiq edirdilər. Əmələ və füqəra hakimiyyəti naminə "Müsavat firqəsi milli-müsəlman şurası"na elani-hərb edən "Bakı Soveti" erməni alayları ilə biliştirak 10 000 qərib müsəlmanı

qətl etdi" (17, s. 33).

Bu hadisələrdən sonra fikir müxtəlifliyində olan azərbaycanlılar, gürcülər və ermənilərin Seymdə birgə fəaliyyəti getdikcə mümkün olmur, münasibətlərdə inamsızlıq yaranırdı.Odur ki, Zaqafqaziya hökumətinin Türkiyə ilə apardığı müharibə 8 gündən artıq çəkmədi. Türklər aprelin 15-də Batumu tutdular, eyni zamanda Qarsı mühasirəyə aldılar (18, s. 183).

Belə vəziyyətdə aprelin 19-da Seymə daxil olan Azərbaycan nümayəndələrinin birgə yığıncağında onlar Zaqafqaziyanın müstəqilliyini tələb etdilər.

Tezliklə gürcülər və ermənilər türklərin əsas tələbinin yerinə yetirilməsinin – yəni Brest-Litovsk Müqaviləsi şərtlərinin və Zaqafqaziyanın müstəqilliyinin elanının vacibliyini dərk edib, müharibənin dayandırılması zərurəti qarşısında qaldılar. 1918-ci il aprelin 22-də Zaqafqaziyanın müstəqilliyi elan edildi.

Lakin Zaqafqaziya Seymi daxilində ziddiyyətlər azalmır, getdikcə gərginləşirdi. Mayın 25-də gürcülər Seymin buraxılması və Gürcüstanın müstəqilliyinin elan olunması qərarına gəldilər.

1918-ci il mayın 26-da Seymin sonuncu iclası keçirildi və onun fəaliyyəti dayandırıldı. Seymin fəaliyyəti dayandırıldıqdan sonra 1918-ci il mayın 27-də Zaqafqaziya Seyminin buraxılması ilə bağlı buraya daxil olan Azərbaycan nümayəndələrinin fövqəladə iclası keçirildi və iclas Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürərək, Azərbaycan Müvəqqəti Milli Şurasını elan etdi. Sonra Milli Şuranın sədri seçkisinə başlanıldı. "Müsavat" Partiyası M.Ə.Rəsulzadənin sədrliyini irəli sürdü. "İttihad" Partiyası istisna olmaqla, qalan təşkilatların səsverməsi nəticəsində M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. H.Ağayev və M.Seyidov Milli Şura sədrinin müavinləri seçildilər. Elə həmin iclasda Milli Şuranın doqquz nəfərdən ibarət icraiyyə orqanı yaradıldı, F.Xoyski icraiyyə orqanının sədri seçildi. İlk Azərbaycan hökumətinin təşkili F.Xoyskiyə tapşırıldı. Yaradılan ilk hökumət aşağıdakı tərkibdə idi: "Nazirlər Şurasının sədri və Daxili İşlər Naziri – F.X.Xoyski; Hərbi Nazir – Xosrov bəy Sultanov, Xalq Maarifi və Maliyyə Naziri – Nəsib bəy Yusifbəyli; Xarici İşlər Naziri – Məmməd Həsən Hacınski; Poçt-Teleqraf və Yollar Naziri – Xudadat bəy Məlikaslanov; Əkinçilik və Əmək Naziri – Əkbər ağa Şeyxülislamov; Ədliyyə Naziri – Xəlil bəy Xasməmmədov; Ticarət və Sənaye Naziri – Məmməd Yusif Cəfərov; Dövlət Naziri – Cəmo bəy Hacınski.Mayın 28-də Milli Şuranın ilk iclasında (24 nəfərin iştirakı ilə) aşağıdakı məsələlər müzakirə edildi: 1. H.Ağayevin Yelizavetpoldakı (Gəncədəki) son hadisələr barədə məlumatı; 2. M.Ə.Rəsulzadənin Batumdan teleqramının və məktubunun oxunması; 3. Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanın vəziyyəti (15, s.85).

Azərbaycan istiqlalının elan olunması günündə M.Ə.Rəsulzadə Tiflisdə deyildi. Səbəbi həmin hadisə ərəfəsində onun Batuma göndərilərək, orada türklərlə danışıqlar aparması idi. Çünki Müstəqil Qafqaz Batum danışıqlarına sülh heyəti göndərərkən (M.Ə.Rəsulzadə məhz bu heyətdə idi) "Azərbaycan siyasi firqələrinin birləşmiş iclasında" Nəsib bəy Yusifbəyli "Osmanlı dövlətindən yardım istəmək zərurətini" bildirmişdi.

1918-ci il iyunun 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasındakı dostluq müqavilə"sini Türkiyə dövləti adından Ədliyyə Naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Vəhib Paşa, Azərbaycan hökuməti adından isə Xarici İşlər Naziri M.H.Hacınski və Milli Şuranın sədri M.Ə.Rəsulzadə imzaladı.

Sənədin 4-cü maddəsində isə yazılmışdı: "Dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün, əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür" (20, F. 277, s. 2, iş 89, v. 10).

Azərbaycan hökuməti ən ağır və ən çətin şəraitdə məhz həmin müqavilə əsasında türk qoşunlarını Azərbaycana dəvət etmişdi. M.Ə.Rəsulzadə yazırdı: "Bütün Azərbaycan xəlqinin çar-çeşmlə bəklədiyi ümidə tərcüman olan bu müraciətimizdə Türkiyə heyəti-mürəxxəsəsi həmən müvafiqət cavabını verdi" (17, s. 40).

1918-ci il sentyabrın 15-də isə türk qoşunlarının və Azərbaycanın yeni yaranmaqda olan hərbi hissələrinin kəskin hücumu ilə Bakı şəhəri alındı. Şəhərin alınması uğrundakı döyüşlərdə çoxlu qurbanlar verildi.

M.Ə.Rəsulzadə həmin günlərdə İstanbulda idi. O yazırdı: "O dövrün Hərbiyyə naziri və Baş komandan vəkili bulunan Ənvər Paşa həzrətləri telefon edirdilər:

– Əmin bəy, Bakı alındı! Bu qısa xəbərin məndə tövlid etdiyi təsiri qabil deyil, təsvir edə bilmirəm. O təsiri hələ unuda bilmirəm" (11, s.51).

Şübhəsiz ki, müstəqil Azərbaycan dövləti quruculuğu prosesində ilk uğurlu addımlardan biri Azərbaycan parlamentinin yaradılması oldu.

Azərbaycan Parlamentinin yaradılması ilə bağlı Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə ciddi fəaliyyət göstərirdi. Onun imzası ilə 1918-ci il noyabr ayının 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi hazırlanmışdı. Müraciətnamədə deyilirdi: "Vətəndaşlar! Müharibə və zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan

Şurayi-Millisi iltizam-zaman ilə təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurayi-millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurayi-Millini milli bir şəkildən çıxarıb da dövləti bir şəklə salmaq oldu." (21, F. 895, s.3, iş 187, v. 1-2).

Parlamentin ilk iclasını M.Ə.Rəsulzadə giriş nitqi ilə açdı: "Möhtərəm Millət vəkilləri! Azərbaycan Milli Cumhuriyyətinin ilk parlamentosunu açmaq səadətinin, Siz möhtərəm millət vəkillərini təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə iftixar edirəm (alqışlar)... Əfəndilər, Rusiyada zühur edən böyük inqilab digər həqiqətlər arasında bir böyük həqiqəti dəxi elan etmişdi. Bu həqiqət millətlərin hürriyyət və istiqlal haqları idi..." (22,s. 84).

Azərbaycan Parlamentində "Müsavat" Partiyasının bəyannaməsini təşkilatın lideri M.Ə.Rəsulzadə elan etdi. Həmin tarixi bəyannamədə göstərilirdi: "Bəli, artıq Azərbaycan ideyası barədə firqələrimiz arasında fikir ixtilafı yoxdur. Azərbaycan fikri millətin şüurunda yerləşmişdir. Üçrəngli əziz bayrağımız hamımızı siyasətcə birləşdirir. Azərbaycan istiqlalını müdafiə etmək hamımız üçün ortaq bir proqramdır." (23, s. 85).

Azərbaycan Parlamentində ən güclü fraksiya "Müsavat"la bitərəf demokratların birləşməsi idi. Bu fraksiyanın ümumi sayı 38 nəfər idi.

Azərbaycan Parlamentinin işində M.Ə.Rəsulzadə böyük fəallıq göstərirdi. Parlament iclaslarında fəal iştirak edən M.Ə.Rəsulzadə başçılıq etdiyi "Müsavat" fraksiyasının fəaliyyət proqramları haqqında tez-tez məlumatlar verirdi.

M.Ə.Rəsulzadə 1918-1920-ci illərdəki fəaliyyətində Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətlə mübarizə aparırdı.

Qeyd edək ki, Azərbaycanın müstəqil dövlət olaraq beynəlxalq nüfuzunun artdığı bir zamanda 1920-ci ilin 27 Aprel işğalı baş verdi.

27 Aprel işğalının səbəblərini araşdırmadan qeyd etməliyik ki, M.Ə.Rəsulzadə milli, müstəqil dövlətimizin varlığı, qalıb yaşaması üçün bütün imkanlarını sərf etmişdi.

Rusiyanın (istər çar, istərsə də sovet Rusiyası) daima təbii müttəfiqi olmuş ermənilər öz xəyanətkar mövqelərindən bu dəfə də qalmadılar, 1920-ci il mart ayının 20-də Azərbaycan bölgələrinə hücuma keçdilər.

M.Ə.Rəsulzadə ermənilərin bu xəyanəti ilə bağlı yazırdı: "Bayram gecəsi – Novruz bayramı Şuşa şəhərinin yaxınlığında vaqe "Xankəndi" deyilən əsgəri qəsəbə bayrama məxsus bir zövq içində zabitan məhfəli - əsgəridə gecəyi keçirməklə məşğul... Bu əsnada ətraf köylərdə məskun erməni ustası bu gecəyi məxsus ehzar etdikləri süngülərlə mücəhhəz olduqları halda gecə ilən bir basqın icra ediyorlar"... (17, s. 64).

Bolşevik Rusiyası isə Azərbaycanı çoxdan işğal etməyə hazırlaşırdı. S.M.Kirov 1920-ci il martın 9-da A. Mikoyana göndərdiyi məktubda XI ordu ilə birgə hərəkət etmək haqqında göstərişlər verərək bildirirdi: "Kəşfiyyatı gücləndirin, bizə rəqibin (yəni – milli Azərbaycan Ordusunun – N. Y.) harada toplaşdığını bilmək lazımdır". Qafqaz cəbhəsi İnqilabi Hərbi Şurası S.Q.Orconikidzenin başçılığı ilə 21 və 23 aprel tarixində XI Orduya Aprelin 27-də Azərbaycan sərhədini keçib bütün ərazini tutmaq əmrini vermişdi.

Aprelin 27-də azərbaycanlı bolşeviklər gündüz saat 12-də Azərbaycan K(b)P MK, RK(b)P Ölkə Komitəsinin Bakı bürosu və Mərkəzi fəhlə konfransı adından Parlamentə 12 saatlıq ultimatum verdilər. Ultimatumu müzakirə etmək üçün yaradılan Parlament komissiyası ilə kommunistlər arasında gedən danışıqlardan sonra qərara alındı ki, bu məsələ Parlamentin fövqəladə iclasında müzakirə edilsin. Axşam saat 19.30-da Parlamentin fövqəladə iclasında M.Hacınski komissiya adından bildirdi ki, kommunistlərin ultimatumunun bütün şərtləri müsavatçıların lideri M.Ə.Rəsulzadə istisna olmaqla komissiya tərəfindən qəbul edilir.

M.Ə.Rəsulzadə son dəfə olaraq parlamentin iclasında çıxış etdi: " Qızıl Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim ultimatumu qəbul etmək zillətinə qatlanmağa ehtiyac yoxdur. Bu mötəcavizanə ultimatumu rədd etməliyik..." (22, s. 146-147).

Sədr M.Y.Cəfərov verilən ultimatumu səsə qoydu, üç nəfər bitərəf qalmaqla hakimiyyət bolşeviklərə verildi (23, s. 112-113).

1920-ci il Aprelin 27-də baş verən hadisələrdən sonra M.Ə.Rəsulzadə yaxın əqidə dostları ilə birgə gizli fəaliyyətə başladı.

Parlamentdə hökumət təhvil verildikdən sonra M.B.Məmmədzadə ilə Ə.V.Yurdsevər M.Ə.Rəsulzadənin qaldığı mənzilə gedib, partiya liderindən məsləhətlər aldılar. M.Ə.Rəsulzadə ilə görüşdən sonra onlar Cəfər Cabbarlının (böyük yazıçı və dramaturq – N. Y.) şəhər kənarındakı evinə getdilər. M.Ə.Rəsulzadənin göstərişlərinə uyğun olaraq Cəfər Cabbarlı, Mirzə Bala Məmmədzadə, Əbdül Vahab Yurdsevər, Məmməd Sadiq Quluzadə və Məmməd Həsən Baharlıdan ibarət Müsavatın "Gizli Ümumi Mərkəzi" yaradıldı. Ə.V.Yurdsevər bununla bağlı yazırdı: "Partiya mərkəzi qurulduqdan sonra vəzifə bölgüsünə başlanılmış və komissiyaların təşkilinə keçilmişdi. Emin bəyin də razılığı ilə gizli təşkilatın başına M.B.Məmmədzadə gətirilmişdi. Müavini sifətilə Bakı Komitəsinin təşkili mənə tapşırılmışdı. Ümumi mərkəzin Baş katibliyinə isə Cəfər Cabbarlı seçilmişdi" (23, s.115).

Azərbaycanın işğalının ilk günündən bolşeviklər qanlı üsullara əl atdılar. 1920-ci il aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 000 (qırx səkkiz min) adam qırmızı terrorun qurbanı oldu" (23, s.128).

M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi" (23, s.128). Pankratov XI Ordunun Siyasi şöbəsinin rəisi idi. Ümumiyyətlə isə, bu dövrdə Azərbaycanda üç qanlı təşkilat fəaliyyət göstərirdi: 1) XI Ordunun Pankratovun başçılığı ilə Xüsusi Şöbəsi – "Osobıy otdel"; 2) Azərbaycan Çekası; 3) XI Ordunun inqilabi tribunalı.

Bu təşkilatların içərisində ən qorxulusu "Osobıy otdel" idi. Çünki "Osobıy otdel" sorğusuz-sualsız istədiyi adamı güllələmək, öldürmək hüququna malik idi. Yalnız 1920-ci ilin avqustunda AK(b)P MK Siyasi Bürosunun iclasında XI Ordunun Xüsusi Şöbəsinə AK(b)MK Siyasi Bürosunun xəbəri olmadan heç bir ölüm hökmü çıxarmamaq təklifi verilmişdi.

Azərbaycanda Pankratovun başçılığı altında olan "Osobıy otdel"də isə çoxlu ermənilər fəaliyyət göstərir və imkandan istifadə edib, azərbaycanlılardan qisas alırdılar.

Lakin Sovet hakimiyyətinin basqı və təzyiqlərinə baxmayaraq, M.Ə.Rəsulzadənin rəhbərliyində olan "Gizli Müsavat" təşkilatı xalq arasında ciddi fəaliyyət göstərirdi.

Bolşeviklərin işğalçı mahiyyətini anladıqca, xalqın etiraz müqaviməti artırdı. Tezliklə Azərbaycanı bürüyən silahlı üsyanlar bolşeviklərin ölkədə asanlıqla qala bilməyəcəyini sübut etdi. 1920-ci il mayın 21-də Tərtərdə başlanan ilk üsyan mayın 25-də Gəncədə daha böyük miqyas aldı. Bir həftəyə yaxın müddətdə Gəncədə sovet hökumətinin fəaliyyəti dayandırıldı. Hələ o zaman Bakını tərk etməyib, Ramanada gizli yaşayan M.Ə.Rəsulzadə sonralar yazırdı: "Bu üsyan ibtida Gəncədə başladı. Çarizmin qəddar generalı Sisyanova parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərirdi" (17, s. 70).

Azərbaycanın digər bölgələrində də bolşeviklərə qarşı ciddi müqavimət göstərilirdi. Və getdikcə M.Ə.Rəsulzadənin gizli fəaliyyəti də qeyri mümkün olurdu.

Bakıda qalmağın təhlükəli olduğunu və daim axtarıldığını hiss edərək, M.Ə.Rəsulzadə şəhəri tərk etməyi qərara aldı. Münasib yer olaraq Lahıcda qalmağa üstünlük verdi. Lahıca müsavatçı dostu Abbasqulu Kazımzadə ilə getdi. Əslən Lahıcdan olan digər dostu Ağabala Qasımov ona bu işdə böyük köməklik göstərdi.

Lahıcda olduğu müddətdə M.Ə.Rəsulzadə istiqlal tariximizin öyrənilməsinə əvəzsiz bir töhvə bəxş edir: "Əsrimizin Səyavuşu"nu yazır. 1920-ci il avqustun 17-də M.Ə.Rəsulzadəni Lahıc yaxınlığındakı Qaraməryəmdə həbs edib, Bakıya apardılar.

M.Ə.Rəsulzadə həbsxanada olarkən keçmiş mübarizə dostu Stalin Bakıda onunla görüşdü və onu həbsxanadan azad etdirib, özü ilə birgə Moskvaya apardı. Moskvada o, bir müddət RSFSR Millətlər Komissarlığında çalışdı, sonra oradan Sankt-Peterburqa, Sankt-Peterburqdan Finlandiyaya, Finlandiyadan Türkiyəyə getdi və siyasi fəaliyyətini mühacirətdə davam etdirdi.

## ƏDƏBİYYAT:

*1) Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, 1991. 2)Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992. 3)"Açıq Söz" qəzeti, 1917, N513. 4) Azərbaycan Kommunist Partiyasının oçerkləri. Bakı, 1964. 5) Əfəndiyev S.M. Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən. Bakı,1957. 6) Mehmet Saray. Azərbaycan Türk tarixi. İstanbul, 1993. 7)"Şərqi-Rus" qəzeti. Bakı, 1903, N14. 8) Oruclu M. Müsavat Partiyasının fəaliyyəti. "Müsavat" jurnalı, Bakı, 1995, N3(7). 9)"Azərbaycan" jurnalı, 1955, N12(36). 10) Cəfərov N. Milli ictimai fikir tariximizdən. Bakı, 1993. 11) Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti. İstanbul, 1990. 12) "Açıq Söz" qəzetu, 1915, N1. 13) "Kaspi" qəzeti, Bakı, 1917, N84. 14) İhsan İlqar. Rusiyada Birinci Müsəlman Konqresi. Ankara, 1990. 15) Həsənov C. Azərbaycan Beynəlxalq münasibətlər sistemində. Bakı, 1993. 16) Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 276. 17)Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990. 18) Balayev A. Azerbaydjanskoye natsionalnoye dvijeniye v. 1917-1918 q. Bakı, 1990. 19) Azərbaycan Respublikası Milli Arxiv İdarəsi . Fond 894. 20) Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 277. 21) Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. fond 895. 22)Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991. 23)Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, 1997.*

***Nəsiman Yaqublu,***
***tarix elmləri üzrə fəlsəfə doktoru***